**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# GƏNCƏ DÖVLƏT DRAM TEATRININ YARADICILIQ İSTİQAMƏTLƏRİ (1950-1990-cı illər)

| | |
|---|---|
| İxtisas: | 6212.01 Teatr sənəti |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Mahirə Rasim qızı Qayıbova** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya Bakı Xoreoqrafiya Akademiyasının Sənətşünaslıq kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor<br>**Timuçin İlyas oğlu Əfəndiyev** |
| **Rəsmi opponentlər:** | AMEA-nın müxbir üzvü, sənətşünaslıq elmləri doktoru, professor<br>**Rəna Azər qızı Məmmədova** |
| | Sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Lalə Şamil qızı Səlimova** |
| | Sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Xəzər Novruz oğlu Gəncəli** |

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən FD: 2.35 – Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>____________________ | Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru, professor<br>**Məryam Əli qızı Əlizadə** |
| Dissertasiya şurasının elmi katibi:<br>____________________ | Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Gülnarə Kərim qızı Hüseynova** |
| Elmi seminarın sədri:<br>____________________ | Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru, professor<br>**Məryam Əli qızı Əlizadə** |

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Gəncə teatrı milli teatr prosesinin tərkib hissəsi olaraq Azərbaycan səhnə sənətinin inkişafında mühüm rol oynamışdır. Bu mənada, zəngin sənət və yaradıcılıq ənənələrinə malik Gəncə teatrının tarixinin öyrənilməsi milli teatrşünaslığımız üçün böyük əhəmiyyət kəsb edir. Tədqiqata cəlb etdiyimiz "Gəncə Dövlət Dram Teatrının yaradıcılıq istiqamətləri (1950-1990-cı illər)" mövzusu bu baxımdan xüsusi aktuallığa malikdir.

Azərbaycan milli teatr tarixindən məlum olduğu kimi, Gəncə Dövlət Dram Teatrının sələfi Azad Tənqid və Təbliğ Teatrı 1921-ci il noyabr ayının 13-də kiçik həcmli "Çərxi fələk" (S.S.Axundov), "Yazıya pozu yoxdur" (A.Şaiq) və "Sabotajçılar" (M.S.Ordubadi) tamaşaları ilə Bakıda fəaliyyətə başlayıb. Bu *"teatr öz yaradıcılığının məndəricəsi və yaradıcılıq qayəsi, forma ünsürləri ilə Azərbaycan səhnə sənəti üçün yeni idi."*[1] Professor İlham Rəhimlinin "Bakı Türk İşçi Teatrı" kitabında yazdığına görə, bu sənət ocağı 1925-ci ilin avqustundan 1927-ci ilin mayına qədər Bakı Türk İşçi və Kəndli Teatrı, 1927-ci ilin may ayından 1932-ci ilin sonuna kimi Bakı Türk İşçi Teatrı adlanıb.[2] Məhz həmin ilin sonlarında o zamankı hökumət bu teatrın Gəncə şəhərinə köçürülməsi barədə qərar verib. Beləliklə, bu kollektiv 1933-cü ildə Gəncə şəhərində Qızıl bayraqlı Türk İşçi Teatrosu adı ilə yaradıcılığını davam etdirdi. Gəncə Dövlət Dram Teatrı kimi fəaliyyət göstərən bu sənət ocağına, bir il sonra, yəni 1956-1957-ci ilin teatr mövsümündən etibarən C. Cabbarlının adı verildi.[3]

---

[1] Rəhimli, İ. Bakı Türk İşçi Teatrı / İ.Rəhimov. – Bakı: "Elm", – 2004. – 186, s. 7-8.

[2] Yenə orada, s. 3-4.

[3] Rəhimli, İ. Azərbaycan teatrı / İ.Rəhimov. – Bakı: TEAS Press, – 2018. – 912 s., s. 345.

Teatrın inkişaf tarixindən bəhs edən İlham Qazızadənin yazdığına görə, bu teatrın tarixi rolunu qiymətləndirərkən yaradıcılığını dövrlə, hökumətin incəsənət sahəsində yeritdiyi siyasət ilə əlaqəli şəkildə nəzərdən keçirib, ona tarixilik nöqteyi-nəzərdən yanaşmaq lazımdır.[4]

Aparılan mədəniyyət siyasətinin nəticəsində Gəncəyə köçürülən teatr əvvəllər darısqal binada fəaliyyət göstərirdi. Bu illərdə kollektivin Bakıda oynadığı əsərlərdən "Hind qızı" (Ə.Hamid), "Cancur Səməd" (J.B.Molyer), "Küləklər şəhəri" (V.Kirşon), "Namus" (A.Şirvanzadə), "Sevil" (C.Cabbarlı), "Yanğın" (S.Rüstəm və H.Nəzərli), "İncə" (A.Qlebov) tamaşalarını bərpa etdi. Hələ müharibə illərində daha çox vətənpərvərlik, tarixi qəhrəmanlıq, mübarizlik ruhlu tamaşalara üstünlük verən teatr müharibədən sonra ciddi maliyyə problemlərinə məruz qalsa da bütün qüvvələrini səfərbər edib yeni yaradıcılıq səyləri ilə fəaliyyətə başladı.

Bu dövrdə Gəncə teatrı onu tez-tez vulqarçılığa və çılpaq forma axtarışlarına gətirib çıxaran sol aludəçiliklərdən uzaqlaşmağa və realist prinsiplərə daha dərindən yiyələnməyə başlamışdı. Bu da onu Əzizbəyov teatrı ilə yaxınlaşdırmaya bilməzdi. Teatrın Gəncədəki fəaliyyəti illərində bu proses daha da gücləndi. Tezliklə respublikanın bütün teatrları, o cümlədən Gəncə teatrı da öz yaradıcılıq istiqamətlərini Əzizbəyov adına teatra əsasən müəyyən etməyə başladı.

XX əsrin 30-cu illərində Əzizbəyov teatrı artıq öz yaradıcılığının kamillik mərhələsinə qədəm qoymuş, özünəməxsus milli səhnə sənətinin formalaşdığı və inkişaf edə bildiyi əsas sənət ocağına çevrilmişdi.[5]

---

[4] Qazızadə, İ. Azərbaycan işçi teatrı (1921-1932-ci illər) / İ.Qazızadə. – Bakı: Elm və təhsil, – 2012. – 160 s., s.10.

[5] Cəfərov, C. Azərbaycan teatrı / C.Cəfərov. – Bakı: Zərdabi nəşriyyatı MMC, – 2023. – 440 s., s. 225.

Dissertasiyada teatrın məhz bu dövrdən başlayaraq 1990-cı illərə qədərki yaradıcılığı tədqiqata cəlb olunub. Tədqiqatın 1990-cı ilə qədərki dövrü əhatə etməsinin başlıca səbəbi 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra, ölkəmizin təkcə ictimai-siyasi həyatında deyil, bütövlükdə həyat tərzində, o cümlədən milli teatr sənətində də yeni eranın başlanmasıdır. 1991-ci ildən başlayan yeni mərhələ isə təbii ki, yeni bir tədqiqat tələb edir.

Sözsüz ki, bu günədək Gəncə teatrı və bu sənət ocağının sələfi Bakı Türk İşçi Teatrı haqqında bir çox müəllif tərəfindən müxtəlif səciyyəli kitablar,[6] oçerk[7] və məqalələr yazılıb. Bu müəlliflərdən M.S.Əfəndiyevin, İ.Qazızadənin, İ.Kərimovun, M.Bağırovun, İ.Rəhimlinin adlarını çəkə bilərik. Lakin M.S.Əfəndiyevin və İ. Qazızadənin Türk İşçi Teatrının yaradıcılıq yoluna həsr etdikləri tədqiqatları nəzərə almasaq, teatrın fəaliyyəti ayrıca monoqrafik tədqiqatın predmeti olmamış, teatrın repertuar, bədii tərtibat, rejissor və aktyor yaradıcılığı problemləri elmi-nəzəri müstəvidə yeterincə əhatəli tədqiq və təhlil edilməmişdır. Bu səbəbdən, araşdırmaya cəlb etdiyimiz dövrdə Gəncə teatrının tarixində həm ictimai-mədəni zənginliyi, həm də ideya-estetik mürəkkəbliyi ilə seçilən 1950-1990-cı illəri əhatə edən fəaliyyəti dövründəki yaradıcılıq istiqamətləri, klassik dramaturgiyanın səhnə təcəssümü sahəsindəki bədii səhnə axtarışları, müasir əsərlərin tamaşalarında mövzu, janr və üslub yenilikləri, rejissuranın estetik səciyyələri və s. baxımından tədqiqi xüsusi aktuallıq kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Gəncə Dövlət Dram Teatrı geniş mənada Azərbaycan milli peşəkar teatrının ayrılmaz bir qoludur. Tədqiqat sırf bu teatrın repertuar, aktyor, rejissor, səhnəqrafiya yaradıcılığına, janr, üslub, forma və məzmun xüsusiyyətinə əsaslanır. Tədqiqatın **obyekti**ni Gəncə teatrının 1950-

---

[6] Bağırov, B.B. 60 il xalqın xidmətində / B.B. Bağırov. – Bakı: İşıq, – 1981. – 151 s., s. 63.

[7] Məmmədov, M.Ə. Teatrlar. Aktyorlar. Tamaşalar / M.Ə. Məmmədov. – Bakı: Azərnəşr, – 1966. – 219 s., s. 123.

1990-cı illərdəki fəaliyyəti təşkil edir. Bununla belə, yeri gəldikcə, ümumilikdə teatrın bütün fəaliyyət salnaməsi, uzun illərin yaradıcılıq təcrübəsinin başlıca prinsipləri öyrənilib və bir sıra tamaşaların əvvəlki quruluşları ilə müqayisəli təhlillər aparılıb.

Tədqiqatın **predmeti** isə 1950-1990-cı illərdə Gəncə teatrının repertuarını təşkil edən tamaşalar və onların janr, üslub xüsusiyyətləri, poetika səciyyələri, aktyor və rejissor sənəti sahəsindəki bədii səhnə axtarışları, bir küll halında götürsək bu qocaman sənət ocağının başlıca yaradıcılıq istiqamətləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Gəncə Dövlət Dram Teatrının keçdiyi tarixi yolun xüsusi mərhələsi olan 1950-1990-cı illər dövrünü əhatəli şəkildə araşdırmaq, onun repertuarını təşkil edən ayrı-ayrı tamaşaları təhlil etmək, bu tamaşaların mövzu, ideya, janr, üslub xüsusiyyətlərini, rejissor və aktyor işinin bədii-estetik səciyyələrini, bütövlükdə teatrın müasirlik axtarışlarını, onun həmin dövrdəki yaradıcılıq istiqamətlərini müəyyən etməkdir.

Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- –Gəncə teatrının 1950-1990-cı illərdəki fəaliyyət dövrünü əhatəli şəkildə araşdırmaq;
- –Milli klassik dramaturgiyanın səhnə təcəssümündə müasirliyin bədii-estetik həllini təhlil etmək;
- –Klassik milli komediya və onun müasir səhnə yozumu üslublarını nəzərdən keçirmək;
- –Dünya dramaturgiyası nümunələrinin müxtəlif janrlı tamaşalarında mövzu-problematikanın aktuallıq parametrlərini dəyərləndirmək;
- –Gəncə teatrının repertuarında yer tutan tamaşalardakı aktyor ifaçılığının əsas səciyyələrini müəyyənləşdirmək;
- –1950-1990-cı illərdə Gəncə Dövlət Dram Teatrının keçdiyi yolun bədii-estetik mənzərəsini elmi-nəzəri tədqiqata cəlb etmək.

**Tədqiqatın metodları.** Dissertasiyada tədqiqata cəlb edilən problem dьnya və Azərbaycan teatrэnэn tarixi təcrьbəsi, mьasir sənətюьnaslэq, kulturologiya, estetika elmlərinin nailiyyətlərindən bəhrələnərək araюdэrэlmэю, bu zaman ənənə və mьasirlik prinsipi əsas gцtьrьlmьєdьr. Tədqiqatэn baюlэca metodoloji əsasэnэ mьqayisəli təhlil metodu təєkil edir. Gəncə teatrэnэn yaradэcэlэq yolu nəzərdən keзirilərkən tarixi-xronoloji təhlil metodundan da istifadə olunmuюdur. Teatrэn yaradэcэlэq yolunun estetik səciyyələrini, yaradэcэlэq istiqamətlərini mьəyyən etmək ьзьn tipoloji təhlil metoduna mьraciət edilmiєdir.

Tədqiqat iєində yeri gəldikcə dьnya estetik fikrinin gцrkəmli nьmayəndələrindən Aristotelin, V.Belinskinin, Y.Borevin əsərlərindən bəhrələnərək dissertasiyanэn elmi-nəzəri mьndəricəsini zənginləєdirmək imkanэ yaranmэюdэr. Bundan baюqa, tədqiqat prosesində Azərbaycanlэ mьəlliflərdən M.S.Əfəndiyev, C.Cəfərov, M.A.Dadaєzadə, Ə.Sultanlэ, M.Məmmədov, Y.Qarayev, Э.Kərimov, M.Allahverdiyev, C.Səfərov, M.Əlizadə, Э.Rəhimli, Э.Qazэzadə və b. tədqiqatзэlarэn əsərlərinə mьraciət olunmuє, Gəncə teatrэnэn tarixi milli teatr prosesinin tərkib hissəsi kimi nəzərdən keзirilmiю, teatrэn yaradэcэlэq istiqamətləri ilə baplэ qənaətlər dissertasiyaya daxil edilmiєdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Apardığımız araşdırma nəticəsində gəldiyimiz qənaətlər aşağıdakı müddəaları müdafiəyə çıxarmağa imkan verir:

–Gəncə Dram Teatrının yaradıcılıq salnaməsi göstərir ki, o hər zaman Azərbaycan teatrının ayrılmaz bir qolu olaraq fəaliyyət göstərmiş, milli teatr sənətinin yaradıcılıq ənənələrinə sadiq qalmış, hər hansı yeniliklərə açıq olmuşdur.

–Teatr 1950-1990-cı illərdə, yəni, tədqiqatımızın əhatə etdiyi 40 il ərzində müxtəlif mövzu və janrda 200-dən çox tamaşa hazırlamışdır ki, bu da kollektivin məhsuldar

yaradıcılığının konkret bəhrəsi olan zəngin repertuarda bariz şəkildə görünür.

– Teatrda istər xarici, istərsə də milli klassik dramaturgiyanın səhnə təcəssümündə müasirlik bədii-estetik prinsip kimi götürülmüş, klassik milli komediyalara müasir səhnə yozumu verilmiş, dünya klassiklərinin müxtəlif janrlı tamaşaları məharətli aktyor ifaçılığında təzahür tapan yüksək yaradıcılıq ustalığı ilə yadda qalmışdır.
– Araşdırmalar göstərir ki, müasir əsərlərin səhnə həllində mövzu, janr və üslub axtarışları prinsipial ideya-estetik səciyyə daşımış, milli teatr ənənələri ilə yanaşı, qabağcıl dünya təcrübəsindən bəhrələnmələr səmərəli nəticələrə, sənət uğurlarına vəsilə olmuşdur.
– Teatrın hazırladığı tamaşalarda lirik-psixoloji üslub hər şeydən əvvəl rejissor yozumunda və aktyor ifaçılığında, səhnə obrazlarının bədii-estetik səhnə təcəssümündə öz əksini tapmışdır.
– Dünya dramaturqlarının əsərlərindəki mənəvi-əxlaqi problemlərin aktuallığına əsaslanan yozum prinsipləri milli dəyərlərə söykənmiş və teatrın üslub xüsusiyyətlərinin həyatiliyini zaman özü təsdiq etmişdir.
– İstər xarici, istərsə də yerli müəlliflərin əsərləri əsasında səhnə təcəssümü tapmış tamaşalar teatrın repertuarında xüsusi yer tutmuş, rejissor və aktyorların sənətkarlıq xüsusiyyətlərinin formalaşmasına həlledici təsir göstərmişdir.
– 1950-1990-cı illərdə teatrın səhnəsində müxtəlif rejissorlar tərəfindən romantik, realist, lirik-psixoloji üslubda tamaşalar hazırlansa da həm rejissor yozumu, həm də aktyor ifaçılığı baxımından romantik üslub açıq-aşkar üstünlük təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Gəncə Dövlət Dram Teatrının yaradıcılıq istiqamətləri, xüsusən də fəaliyyətinin 1950-1990-cı

illərdəki dövrü indiyədək sistemli şəkildə milli teatrşünaslığımız tərəfindən tədqiqata cəlb olunmadığı üçün tədqiq edilən dissertasiyada araşdırılan problemlər xüsusi elmi-nəzəri dəyər və tədqiqat aktuallığı kəsb edir. Odur ki, dissertasiyada qaldırılan və tədqiqata cəlb edilən problem elmi-nəzəri baxımdan yeni olduğu üçün xüsusi əhəmiyyətə malikdir:

- Tədqiqatın elmi yeniliyi, ilk növbədə həm də ondadır ki, Gəncə Dövlət Dram Teatrının 1950-1990-cı illəri əhatə edən yaradıcılığı ilk dəfə məhz bu dissertasiyada kompleks şəkildə araşdırılmışdır;
- Dissertasiyanın elmi yeniliyini sübut edən bir cəhət də həm də ondan ibarətdir ki, ilk dəfə məhz bu tədqiqatda Gəncə Teatrının fəaliyyətinə tipoloji yanaşma metodu tətbiq edilmiş, onun yaradıcılq istiqamətlərinin təsnifatı verilmişdir;
- Milli klassik faciə, komediya və dramların səhnə təcəssümündə müasirliyin bədii-estetik təcəssümü prinsipləri öyrənilmişdir;
- Dünya klassikası əsasında hazırlanan tamaşalarda mövzu-problematikaya, bədii ümumiləşdirmələrə, həmçinin yaradıcı özünəməxsusluq prinsiplərinə xüsusi diqqət verilmişdir;
- Xarici və yerli müəlliflərin əsərləri əsasında hazırlanan tamaşalarda aktyor ifaçılığının peşə və sənət xüsusiyyətləri öyrənilmişdir;
- Əsərlərin Gəncə teatrı səhnəsindəki quruluş estetikası dəyərləndirilmişdir.
- Teatrın repertuarındakı tamaşaların ehtiva etdikləri bədii təmayüllər və estetik elementlər araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi Gəncə Dövlət Dram Teatrının 1950-1990-cı illəri əhatə edən yaradıcılıq yolunu ilk dəfə kompleks şəkildə öyrənən tədqiqat kimi həm nəzəri, həm də praktiki baxımdan böyük əhəmiyyət kəsb edir.

Tədqiqat işi həmçinin ötən əsrin qırx ili ərzində bu teatrın səhnəsində hazırlanan 200-dən artıq mövzu və janr etibarilə müxtəlif olan tamaşaları burada repertuar siyasətinin qurulması prinsiplərinin öyrənilməsi baxımından da xüsusi dəyərə malikdir. Dissertasiyanın zəngin arxiv materiallarına və faktoqrafik məlumatlara malik olması da tədqiqatın elmi-nəzəri əhəmiyyətinə bariz sübutdur.

Tədqiqat iєi, mədəniyyət və incəsənət yцnlь ali məktəblərdə teatrюьnaslэq, aktyorluq, rejissorluq kimi mьvafiq yaradэcэlэq ixtisaslarэ ьzrə təhsil alan bakalavr və magistr tələbələri, eləcə də humanitar istiqamətli ali və orta ixtisas məktəblərinin tələbələri ьзьn tədris vəsaiti kimi faydalэ ola bilər. Bundan baєqa, təqdim edilən bu tədqiqat əsərindən milli teatrэmэzэn tarixi ilə baplэ gələcək tədqiqatlarda yararlanmaq olar.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya mövzusu ilə bağlı məqalə və tezislər Azərbaycan, Türkiyə və Ukraynanın beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan elmi nəşrlərində dərc edilmiş, respublika və beynəlxalq elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** İş Bakı Xoreoqrafiya Akademiyasının Sənətşünaslıq kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi.** Dissertasiya işi Giriş, iki fəsil, səkkiz paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Giriş 8 səhifə 13079; I fəsil 68 səhifə 134703; II fəsil 37 səhifə 71864; Nəticə 9 səhifə 16913 işarədir. Tədqiqat işinin ümumi həcmi isə istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 122 səhifə və 237 115 işarədən ibarətdir. Həmçinin, "Klassik dramaturgiyanın səhnə təcəssümündə üslub axtarışları" adlı I fəslin "Milli klassik dram və faciələrin səhnə təcəssümündə müasirliyin bədii-estetik həlli" adlı birinci paraqrafı 48007, "Klassik

milli komediya və onun müasir səhnə yozumu" adlı ikinci paraqrafı 25945, "Dünya klassiklərinin əsərlərində mövzu-problematikanın zamanla ahəngdarlığı" adlı üçüncü paraqrafı 22812, Klassik əsərlərin tamaşalarında aktyor ifaçılığının əsas səciyyələri" adlı dördüncü paraqrafı 37879 işarətdən ibarətdir. "Müasir əsərlərin səhnə həllinin estetik prinsipləri" adlı II fəslin "Azərbaycan müəlliflərinin dramlarında rejissuranın sənətkarlıq xüsusiyyətləri" adlı birinci paraqrafı 28802, "Müasir komediyalarda gülüşün təcəssüm parametrləri" adlı ikinci paraqrafı 12445, "Lirik-psixoloji üslubun səhnə həlli və aktyor ifaçılığı xüsusiyyətləri" adlı üçüncü paraqrafı 12832, "Dünya dramaturqlarının əsərlərində mənəvi-əxlaqi problemlərin səhnə təcəssümü" adlı dördüncü paraqrafı 17732 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı, öyrənilmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan müddəaları, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti və sair məsələlər şərh olunmuşdur.

Dissertasiyanın **"Klassik dramaturgiyanın səhnə təcəssümündə üslub axtarışları"** adlı I fəsli dörd paraqrafdan ibarətdir. Birinci fəslin **"1.1. Milli klassik dram və faciələrin səhnə təcəssümündə müasirliyin bədii-estetik həlli"** adlanan birinci paraqrafında göstərilir ki, Gəncə Dövlət Dram Teatrı 1949-cu ilin ikinci yarısından tam şəkildə özünümaliyyələşdirmə (təsərrüfat hesablı) iş üsuluna keçdi. 1933-cü ildə ilk dəfə pərdələrini açdığı vaxtdan keçən on altı ildə teatr əhəmiyyətli inkişaf mərhələləri yaşamış, onun repertuarı uğurlu tamaşalarla zənginləşmişdir. Tənqidin yazdığı kimi respublikanın bütün teatrlarında olduğu kimi Gəncə teatrında da Əzizbəyov adına teatrla üzvi şəkildə

yaxınlaşması prosesi nəzərə çarpırdı.[8] Bununla bərabər maliyyə problemlərinə görə 1940-cı illərin sonundan başlayaraq teatrın yaradıcılıq həyatında müəyyən durğunluq müşahidə olunurdu. Belə bir faktı qeyd etməli oluruq ki, 1950-ci illərin əvvəllərində teatra baş rejissor təyin olunan Hüseyn Sultanov Gəncə teatrının fəaliyyətində müsbət dönüş yarada bildi.

Gəncə teatrı klassik dramaturgiyanın səhnə təcəssümündə daim üslub axtarışlarına can atmışdır. Yeni üslub axtarışları həm ilk dəfə bu teatrda səhnələşdirilən əsərlərdə, həm də paytaxt teatrlarında tamaşaya qoyulmuş əsərlərin yenidən səhnələşdirilməsi zamanı özünü göstərmişdir. Teatr ona qədər Azərbaycan teatrında səhnə həllini tapmış əsərlərə yenidən müraciət edərkən bu zaman tərtibat və səhnə yozumu təqlidçiliyindən qaçmağa, əsərlərin səhnə təcəssümündə müxtəlif forma axtarışları aparmağa, yeni səhnə estetikası yaratmağa çalışmışdır.

Əlamətdar olan budur ki, Gəncə teatrı milli klassik dram və faciələrin səhnə təcəssümündə daim müasirliyə can atmışdır. Onun tamaşalarındakı çağdaşlığa əsaslanan rejissor işi müasirliyin bədii-estetik həlli istiqamətlərini özündə ehtiva edirdi. Gəncə teatrı daha əvvəllər Azərbaycan teatrında özünün səhnə həllini tapmış əsərlərə yenidən müraciət edərkən bu əsərlərin səhnə həllinin ən müxtəlif detallarında yeni formalar yaratmağa çalışmışdır. Tamaşalarda rejissor işi müasirliyin bədii-estetik həlli istiqamətlərini mütləq şəkildə özündə ehtiva edirdi. Bu, əgər bir tərəfdən teatr estetikasının öz prinsiplərindən irəli gəlirdisə, digər tərəfdən, sovet məkan-zamanının ideoloji prinsiplərini inikas edirdi. Bu da bir çox hallarda klassik əsərlər üzərində ciddi yaradıcılıq kombinasiyaları etmə məcburiyyətini yaradırdı. Klassik repertuar Gəncə teatrını zənginləşdirməklə yanaşı bu sənət ocağının poetika səciyyələrini də formalaşdırmış, aktyor heyətinin romantik səhnə ifaçılığı ustalığını cilalamış, emosional ifa tərzinin vüsətinə əzəmət vermişdir.

[8] Cəfərov, C. Azərbaycan teatrı / C.Cəfərov. – Bakı: Zərdabi nəşriyyatı MMC, – 2023. – 440 s., s. 288.

Beləliklə, klassik əsərlərə müasir teatr estetikasının prinsipləri ilə səhnə təfsiri vermək sənət ocağının üslubunda orijinallığa zəmin yaratmışdır. Bəlli olduğu kimi teatr poetikası üçün vacib olan göstəricilərdən biri mövzunun konkret həllidir. Hər hansı bədii həllin xüsusiyyətləri kompozisiya özəlliklərində özünü göstərir.[9]

Birinci fəslin **"1.2. Klassik milli komediya və onun müasir səhnə yozumu"** adlı ikinci paraqrafında qeyd olunur ki, Gəncə Dövlət Dram Teatrı 1950-1990-cı illərdə Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan" (1953), Nəcəf bəy Vəzirovun "Hacı Qənbər" ("Yağışdan çıxdıq, yağmura düşdük") (1954), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (1956), Cəlil Məmmədquluzadənin "Ölülər" (1957), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri (1962), "Hacı Qara" (1975), "Mürafiə vəkilləri" (1987) kimi klassik milli komediyaları tamaşaya hazırlayıb.

Bu tamaşalarda üslub vəhdəti, teatrallıq, aktyor heyətinin böyük eşq və həvəslə rejissor fikrini parlaq ifadə etməyə çalışdığı görünürdü. Bu tamaşalar komediyanın əsas ideyasını, onun dərin fəlsəfi məzmununu açmağa kömək edirdi.

Ümumiyyətlə, teatrın repertuarını zənginləşdirmək məqsədi ilə klassik milli komediyalara müraciətlər ardıcıl xarakter daşıyırdı. Gəncə teatrının 1950-1990-cı illərdə klassik dramaturgiyanın səhnə təcəssümündə forma axtarışları milli komediyanın müasir səhnə yozumunda bariz ifadəsini tapırdı.

Bəllidir ki, M.F.Axundzadədən başlayan milli komediya ənənələri, əsasən, ailə-məişət mövzularında təcəssüm olunan sosial-mənəvi problemləri əhatə edirdi. Gəncə teatrının Axundzadənin komediyaları əsasında ayrı ayrı quruluşlarda hazırladığı tamaşalar buradakı istər rejissor tapıntıları, istərsə də səhnə yozumu prinsipləri müəyyən mənada onları yaradıcılıq hadisəsi kimi səciyyələndirməyə imkan verir.

---

[9] Əlizadə, M. Milli teatr prosesinin genezisi // Azərbaycan Teatr Antologiyası:[2 cilddə] / – Bakı: – c.1. – 2013. – 597 s., s. 182.

Teatr təcrübəsinə istinadla demək olar ki, hər bir əsərin səhnə yozumu rejissor, aktyor, səhnə tərtibatı və musiqinin uğurlu vəhdətində təcəssüm olunur. E. Bentlinin təbirincə desək *"hər bir komediyada analoji xüsusiyyətlərə malik bu və ya digər yaşantının təcəssüm olunmasını söyləmək olar."* Komikliyin fəlsəfəsini öyrənmək, bilmək və bacarmaq milli gülüş stixiyası kontekstində dəyərləndirmək sənətkarlıq xüsusiyyətidir.[10]

Bu xüsusiyyətlər Gəncə teatrının hazırladığı klassik komediyalarda da öz təcəssümünü tapırdı. Həmin tamaşalar rejissorların istər mövzu seçimi, istərsə də onların bədii-estetik axtarışlarının nümunələri kimi dəyərli idi. Gəncə teatrının rejissorları bəhs etdiyimiz klassik komediyalara quruluş verdikləri zaman müxtəlif üslublardan (qrotesk, ironiya, milli karnaval və s.) yararlanmağa çalışırdılar. Tənqidin yazdığına görə *"60-cı illərin ortalarında milli məfkurə sferasında əmələ gələn canlanma 70-ci illərdə bir qədər də yüksələn xətt üzrə davam edir. Milli şüurun dirçəlişi təkcə maarifçiliyə, ilk öncə Mirzə Cəlilə, Sabirə qayıdışla, dönüşlə səciyyələnmir. Bu həm də dövr üçün etnik soykökə qayıdışla aktualdır."*[11] Odur ki, klassik komediyalara yeni səhnə həyatı verməklə və aktyor ansamblının yaradıcılıq potensialını təkmilləşdirməklə Azərbaycan teatr məkanında özünəməxsus yerə və mövqeyə iddiaçı olduğunu bəyan etmiş olurdu.

Birinci fəslin **"1.3. Dünya klassiklərinin əsərlərində mövzu-problematikanın zamanla ahəngdarlığı"** adlı üçüncü paraqrafında göstərilir ki, Gəncə Dövlət Dram Teatrı 1950-1990-cı illərdə dünya klassiklərinin bir sıra müxtəlif janrlı əsərlərini tamaşaya hazırlayıb. Antik yunan dramaturqu Evripidin "Medeya" faciəsi Azərbaycan səhnəsində ilk dəfə Gəncə teatrında, həm də tənqidin qeyd etdiyi kimi uğurla səhnəyə qoyulub. Nazim Hikmətin "Kəllə" əsəri,

---

[10] Bentli, E. Dramın həyatı (Ruscadan tərcümə edən Fəridə Cəlilova). – Bakı: ADMİU, – 2015. – 262 s., s. 216.

[11] Vəliyev, Ə. Teatr. Əqidə və Ruh / Ə.Vəliyev. – Bakı: Elm, – 2009. – 237 s., s. 102.

Maksim Qorkinin “Qoca” dramı da bu qəbildəndir və həmin əsərlər ölkəmizdə ilk dəfə Gəncə teatrının səhnəsində ərsəyə gəlib. Gəncə teatrının tamaşaya hazırladığı italyan dramaturqu Karlo Qoldoninin “Məzəli hadisə” və “İki ağanın bir nökəri”, ispan Lope de Veqanın “Kələkbaz sevgili”, ingilis Riçard Şeridanın “Aldanmış adaxlı” komediyaları o zamankı teatr ictimaiyyəti tərəfindən maraqla qarşılanıb. Sofoklun “Antiqona” faciəsi də kollektivin ictimai əks-səda doğuran səhnə işlərindən olub.

Gəncə teatrının böyük maraq göstərdiyi dramaturqlardan biri də heç şübhəsiz ki, Uilyam Şekspirdir. Maraqlıdır ki, *“Azərbaycan teatrının Şekspir əsərlərinin təcəssüm ənənəsində yozumların müxtəlifliyinə baxmayaraq bütün tamaşaların aktyor tamaşaları olub, parlaq və istedadlı ifaçılıq sənəti nümunəsi kimi yadda qaldığını qeyd etmək olar.”*[12] Teatr müxtəlif vaxtlarda onun “Otello” (iki quruluşda) və “III Riçard” faciələrinə səhnə həyatı verib.

Birmənalı şəkildə demək olar ki, Gəncə teatrında dünya klassiklərinin əsərləri əsasında hazırlanmış müxtəlif janrlı tamaşalarda müşahidə olunan mövzu-problematikanın zamanla ahəngdarlığı bu teatrın klassik dramaturgiyanın səhnə təcəssümündə forma və üslub axtarışlarında, müasir estetik fikrin aktuallığına əsaslanan poetika ifadəsində müşahidə edilirdi.

Amma bu da var ki, *“Əvvəlki poetikada təsvirçilik və romantik-qəhramanlıq üslubunun ifadəliliyi, yerli-yersiz rəqslərin, nəğmələrin, musiqi parçalarının, müxtəlif oyun elementlərinin milli forma adı ilə tamaşaya daxil edilməsi, beləliklə, monumentalizmin naturalistik təqdimi kimi verilirdi. Başqa sözlə desək, həmin poetikanın arxasında canlı və yaşarı səhnə həyatının az qala qəsdinə duran saxta teatrçılıq, realizmdən uzaq bayağı oyunçuluq dayanırdı. Teatr sənətinə, aktyor yaradıcılığına ciddi ziyan vuran, onu cılızlaşmaya düçar edən köhnəlmiş teatrdaxili qaydalar təbiidir ki,*

---

[12] İsrafilov, İ.R. Zaman. Rejissor. Poetika / İ.R. İsrafilov. – Bakı: Mars-Print, – 1999, – 272 s., s. 256.

*milli səhnə sənətinin yaradıcılıq həyatındakı reqressiv meyllərə qarşı etirazlar olmaqda davam edirdi."*[13]

Dünya klassiklərinin əsərləri əsasında hazırlanmış tamaşaların dəyərli bədii-estetik cəhətlərindən biri onların çağdaş dövrün ictimai-mədəni, intellektual-estetik ovqatına uyğunluğu idi. Bu zaman dövrün ideoloji-estetik prinsipləri teatrda çalışan rejissor qüvvələrindən, bütövlükdə isə teatr kollektivinin yaradıcılıq səyləri hazırlanan tamaşaların ali məqsədlərinin səslənməsində duyulurdu. Dünya klassiklərinin əsərləri əsasında hazırlanmış müxtəlif janrlı tamaşalarda müşahidə olunan mövzu-problematikanın zamanla ahəngdarlığı bu teatrın klassik dramaturgiyanın səhnə təcəssümündə forma axtarışlarına nail olduğunu təsdiq edir. Gəncə teatrında dünya klassiklərinin müxtəlif janrlı əsərləri əsasında hazırlanmış tamaşalar klassik dramaturgiyanın səhnə təcəssümündə forma axtarışlarına üslub müxtəlifliyi və əlvanlıq gətirmişdir. Bu tamaşalarda müşahidə olunan aparıcı cəhətlərdən biri əsərlərin mövzusu, problemləri ilə tamaşaçı zamanı arasında ahəngdarlıq yaratmaq idi. Gəncə teatrında dünya klassiklərinin əsərləri əsasında hazırlanmış müxtəlif janrlı tamaşalar milli-ədəbi məkan baxımından həm geniş ədəbi-mədəni coğrafiyanı əhatə etmiş, həm də zaman baxımından tarixin dərin qatlarına nüfuz etmişdir.

Birinci fəslin **"1.4. Klassik əsərlərin tamaşalarında aktyor ifaçılığının əsas səciyyələri"** adlı dördüncü paraqrafında göstərilir ki, klassik əsərlər teatrın yaradıcılığının məhək daşıdır, aktyor heyətinin sahib olduğu istedad səviyyəsinin güzgüsü və rejissor təxəyyülünün göstəricisidir. Buna görə də heç bir qabaqcıl teatr klassikasız keçinə bilməz. *"Klassik əsərləri ancaq müasir zamanla səsləşə biləcək baxımdan oynamaq lazımdır. Onların ölməzliyi və müasirliyi də bu zaman meydana çıxır."*[14]

---

[13] İsrafilov İ. Mehdi Məmmədovun rejissor sənəti / İ.R. İsrafilov. – Bakı: Mars-Print, – 2010. – 188 s., s. 82.

[14] Rəhimli, İ.Ə. Şəki teatrı / İ.Ə.Rəhimli. – Bakı: Qanun, – 2016. – 284 s., s. 13.

Gəncə teatrının aparıcı aktyorları repertuarda yer tutan həm yerli, həm xarici əsərlərin tamaşalarında uğurlu rollar oynamışlar. Xalq artisti İsmayıl Talıblı Gəncə teatrının ilk günündən bu kollektivdə işləyən aktyorlardan olub. Xalq artisti Ələkbər Seyfi Tiflis Dövlət Azərbaycan Teatrında, Bakı Türk İşçi Teatrında, 1933-cü ildən Gəncə teatrında çalışıb. Xalq artisti Əşrəf Yusifzadə *"aktyor texnikasına, zahiri ifadə üsullarına, rolun rəsminə də çox diqqət yetirən sənətkarlardan idi."*[15] Xalq artisti Solmaz Orlinskaya öz istedadının çoxşaxəli parlaqlığını yüksək sənətkarlıqla nümayiş etdirirdi. Xalq artisti Rəmziyə Veysəlovanın istedadında zərif lirizm və incə yumor vardı. Xalq artisti Məmməd Bürcəliyevin yaradıcılığında milli xalq oyun-tamaşalarının karnaval estetikası,[16] xüsusən qaravəlli gülüşünün incəlikləri[17] təzahür edirdi. Xalq artisti Muxtar Avşarov 1967-ci ilə kimi Gəncə teatrında calışıb. Xalq artisti Sədayə Mustafayeva əvvəllər Şəki[18] və Göyçay[19] teatrlarında işləyib, 1949-1950-ci il mövsümündən ömrünün sonunadək Gəncədə çalışıb. Xalq artisti Ələddin Abbasov Gəncə teatrının oyun tərzi etibarilə romantik aktyor üslubunu ləyaqətlə təmsil edən son nəsil aktyorlardan idi. Xalq artisti Zülfüqar Baratzadə milli karnaval estetikasında mahir ifadə tərzinə malik aktyor kimi sevilirdi. Xalq artisti Alim Məmmədov 1960-ci illərin ikinci yarısından Gəncə teatrında qəhrəman rollarının ifaçısı olub. Gəncə teatrının yaradıcılıq həyatına yaxından bələd olan professor M. Məmmədovun bu teatrın aktyorları barəsindəki fikirlərinə görə; *"əməkdar artist Səməd Tağızadənin yaradıcılığına daxili hərarət, temperament daha çox*

---

[15] Məmmədov, M.Ə. Teatrlar. Aktyorlar. Tamaşalar / M.Ə. Məmmədov. – Bakı: Azərnəşr, – 1966. – 219 s., s. 51.

[16] Bax: Allahverdiyev, M.Q. Azərbaycan xalq teatrının tarixi / M.Q.Allahverdiyev. – Bakı: Maarif, – 1978. – 233 s.

[17] Bax; Allahverdiyev, M.Q. Qaravəlli tamaşaları / M.Q.Allahverdiyev. – Bakı: İşıq, – 1976. – 66 s.

[18] Bax: Rəhimli, İ.Ə. Şəki teatrı / İ.Ə.Rəhimli. – Bakı: Qanun, 2016. – 284 s.

[19] Bax: Rəhimli, İ.Ə. Azərbaycan teatr tarixi / İ.Ə.Rəhimli. – Bakı: Çaşıoğlu, – 2005. – 862 s.

*xasdır."*[20] Əməkdar artist Sadıq Həsənzadə zəngin daxili aləmi olan, coşqun təbiətli aktyor[21] olub. Bununla belə qeyd edilməlidir ki, bu teatrın aktyorunda tipik obraz yaratmaq meyli kifayət qədər güclü idi. Tipik obraz yaratmaq üçün prototipdən istifadə etmək sənətkarlar, xüsusən rəssamlar və aktyorlar arasında çox yayılmış bir üsuldur. Öz şəxsi xüsusiyyətləri etibailə prototip sənətkarın yaratmaq istədiyi bədii obraza yaxın olan müəyyən konkret insandır. Bu konkret şəxsə əsaslanaraq sənətkar düşündüyü bədii obrazın yaranması üçün daha yaxın və daha doğru bir yol tapmış olur. Lakin həqiqi sənətkarlar həmişə nəzərdə tutmuşlar ki, prototip hələ tip deyildir. Prototipi müəyyən bir ictimai tipə çevirmək üçün onlar böyük sənətkarlıq sərf edirlər.[22] O dövrdə oynanılmış komediyalar bu sahədə zəngin təcrübəsi olan aktyorların komediya janrında müasir gülüş estetikasının norma və prinsiplərini peşəkarlıqla təcəssüm etdirdiklərini göstərir.

Ümumiyyətlə, Gəncə teatrının yaradıcılığı göstərir ki, bu teatrda həm romantik, həm də realist aktyor məktəblərinin nümayəndələri eyni tamaşalarda iştirak edərək uğurlu ifa vəhdəti təşkil etmişlər. Teatrda həmçinin, 1960-cı illərdən etibarən lirik-psixoloji üslubda uğurla çıxış edən aktyor nəsli də yetişmişdir. Əslinə qalsa, Gəncə teatrının aktyor ifaçılığında romantik aktyor məktəbi[23] həmişə aparıcı mövqedə olmuşdur.

Dissertasiyanın **"Müasir əsərlərin səhnə həllinin estetik prinsipləri"** adlı II fəsli dörd paraqrafdan ibarətdir. Bu fəslin **"2.1. Azərbaycan müəlliflərinin dramlarında rejissuranın sənətkarlıq xüsusiyyətləri"** adlı birinci paraqrafında göstərilir ki, Gəncə teatrının

---

[20] Məmmədov, M.Ə. Teatrlar. Aktyorlar. Tamaşalar / M.Ə. Məmmədov. – Bakı: Azərnəşr, – 1966. – 219 s., s. 51.
[21] Yenə orada, s. 52.
[22] Cəfərov, C. İsmayıl Hidayətzadə / C.Cəfərov. – Bakı: Çaşıoğlu, – 2005. – 132 s., s. 69.
[23] Qazıyeva, N. Rejissor sənətkarlığı / N. Qazıyeva. – Bakı: ADMİU, – 2009. – s. 46.

1950-1990-cı illərdə hazırladığı tamaşaların yarısından çoxunu müasir mövzulu əsərlər təşkil edib. Gəncə teatrı məşhur Azərbaycan ədiblərinin əsərlərini tamaşaya qoymaqla yanaşı, Gəncədə yaşayıb yaradıcılıq fəaliyyəti göstərən Altay Məmmədovun, Fəridə Əlyarbəylinin, Nüşabə Məmmədlinin, Surxay Səfərovun, Qərib Mehdiyevin, Əhməd İsayevin müxtəlif janrlı pyeslərinə də vaxtaşırı öz repertuarında yer verib. Eyni zamanda teatr özünün yaradıcılıq qayəsinə, ciddi maraq göstərdiyi mövzu-problematikaya uyğun olan tərcümə əsərlərini də tamaşaya hazırlayıb. O dövrdə teatrın repertuarında tarixi mövzulu əsərlər xüsusi yer tuturdu.

Teatrın dramaturqla iş təcrübəsi göstərir ki, bu iş o zaman faydalı olur ki, teatr öz məqsədini dram əsərinə daha çox bütövlük verməklə, onun ideyasının düzgün çatdırılması ilə, daha çox ifadəliliyi ilə, səhnənin imkanlarından daha yaxşı istifadə etməklə həyata keçirir. Başqa cür ola bilməz, çünki *"dramaturq teatrı yaxşı bilməli"*, teatr isə *"dramaturqun yaradıcılıq fəaliyyətinin dərinliyinə daxil olmağı bacarmalıdır."* Çox vacib məsələlərdən biri də odur ki, dramaturq öz müəllif hüququndan imtina etməsin, teatr isə dramaturqun bu hüquqlarını əlindən almasın, əks təqdirdə *"əməkdaşlıq formal, səmərəsiz olacaqdır."*[24]

Hüseyn Sultanov, Həsən Ağayev, Nəsir Sadıqzadə, Sadıq Həsənzadə, Yusif Bağırov, Hilal Həsənov, Vaqif Şərifov, Yusif Yulduz, Bayram Əliyev, Yusif Qazıyev kimi rejissorlar teatrda rejissor sənətinin yaradıcılıq üslubunun formalaşmasında, çağdaş dövrün sənət bacarığını ehtiva edən müasir estetik prinsiplərə yiyələnməsində səmərəli rol oynamışlar. Onların ayrı-ayrı teatr nümunələrində müəyyən mənada zəif və qüsurlu tamaşaları olsa da ümumilikdə teatrın yaradıcılıq qüdrətinin artmasına müsbət təsir göstərən uğurlu quruluşlar səhnə fəaliyyətlərinin əsasını təşkil etmişdir.

---

[24] Yenə orada, s. 46.

Əlamətdar fakt olaraq qeyd etmək lazımdır ki, bu teatrın estetik dünyagörüşü səciyyəsində formalaşan iqliminin bərqərar olmasında, hətta özünün sonrakı mərhələlərində yaşamasında M. Məmmədovun təsiri əvəzsiz olmuşdur. Belə ki, məhz M. Məmmədovun bu teatrdakı rejissorluq fəaliyyəti nəticəsində dayanaqlı repertuar siyasəti formalaşmış, rejissor sənətinin üslub meyarları müəyyən edilmiş, aktyor yaradıcılığının ifaçılıq ustalığının təkmilləşmə prosesi baş vermişdir. Gəncə teatrının yaradıcı heyətinə onun təlqin etdiyi başlıca tövsiyə ondan ibarətdir ki, aktyor səhnədə heç nəyi oynamamalıdır. M. Məmmədovun qəti qənaətinə görə, nə sözü, nə ovqatı, nə də xarakteri oynamamalı, ona tapşırılan səhnə ovqatını dərindən öyrənib, "təklif edilən şəraiti" dürüst dəyərləndirərsə onun yaradıcılıq niyyəti təbii qənaətlə öz bədii səhnə ifadəsini tapacaq. Bu mövqe ilə tənqid də həmrəydir ki, *"çox vaxt tamaşaçını teatra cəlb edən pyesin, rejissorun qaldırdığı məsələ değil, aktyor oyunudur."*[25]

Onu da qeyd etmək lazımdır ki, teatrın aparıcı aktyorları Məmməd Bürcəliyev, Sadıq Həsənzadə, Məmmədcəfər Cəfərov da müəyyən tamaşaların quruluşçu rejissoru olublar.

İkinci fəslin **"2.2. Müasir komediyalarda gülüşün təcəssüm parametrləri"** adlı ikinci paraqrafında qeyd olunur ki, Gəncə teatrının yaradıcılığında çağdaş müəlliflərin müxtəlif mövzularda yazdıqları komediyaların tamaşaları xüsusi yer tutmuşdur. Teatr bir sıra uğursuz səhnə işlərinə və quruluş nöqsanlarına yol verməklə yanaşı janr və üslub yeniliklərinə nail olmağı bacarmışdır. Professor M. Məmmədovun yazdığı kimi *"Bütün bunlar, bu təqdirəlayiq cəhdlər Kirovabad Dövlət Dram Teatrının (Gəncə teatrı nəzərdə tutulur) realizm yolunda irəliləyən, sənət aləmində öz yerini, öz xəttini müəyyənləşdirməyə çalışan bir teatr olduğunu sübut edir. Kirovabad teatrının müvəffəqiyyətini təmin edən, onu sənətkarlıq səviyyəsinə*

---

[25] Təhməzov, N. Repertuar və rejissorluq // Azərbaycan Teatr Antologiyası:[2 cilddə] / – Bakı: – c.2. – 2013. – 621 s., s. 383.

*yüksəldən, tamaşaçılara sevdirən bir cəhət də ondan ibarətdir ki, bu teatrda istedadlı aktyorlar olmuş və indi də vardır."*[26]

Teatrın repertuarında çağdaş müəlliflərin müxtəlif mövzularda yazdıqları komediyaların xüsusi yer tutması onun ilk növbədə müasirliyə can atması, tamaşaçını bilavasitə onun yaşadığı zamanın problemləri ilə bağlı səhnə-sənət cazibəsinə salmaq istəyi, digər tərəfdən isə rejissor və aktyorların bədii gülüş estetikası vasitəsilə öz istedad və imkanlarını reallaşdırmaq cəhdləri ilə bağlı idi. Öz tamaşaçısını yaxşı tanıyan teatr, öz repertuarında komediyalara, xüsusən də müasir dramaturqların yazdığı komediya əsərlərinə xüsusi yer ayırır, öz yaradıcılıq simasını qorumaq şərtilə bu janra məxsus tamaşaların quruluşuna geniş meydan verirdi.

Satirik komediya, məsxərə, sosial komediya, qaravəlli məzhəkəsi və sair janrlarda hazırlanmış əksər tamaşalar bir sıra hallarda rejissor tapıntıları, təsirli aktyor ifaları ilə fəqrlənirdi. Bu zaman teatr öz *"tamaşaçısını hadisənin şahidinə, iştirakçısına çevirir."* Bu isə *"dördüncü divarı tamamilə aradan götürür, komediyaya sinkretiklik və karnavallıq gətirir, onu əsl Şərq teatrı nümunəsi edir."*[27]

Gəncə teatrının 1950-1990-cı illərdə tamaşaya qoyduğu müasir komediyalarda söz yox ki, uğursuz səhnə işləri də var idi. Bu tamaşaların əsas qüsurları uydurma konflikt yaratmaq cəhdi, ucuz gülüşə meyl, həmçinin bəzi ifaçıların auditoriyaya xoş gəlmək canfəşanlığı təəssüf doğururdu. Belə tamaşalarda rejissor işi baxımından orijinallıq, aktyor ifaçılığında primitivliyə aludəlik əsas yer tutduğuna görə, hər hansı şəkildə yeni ifadə uğurlarına yer qalmırdı.

İkinci fəslin **"2.3. Lirik-psixoloji üslubun səhnə həlli və aktyor ifaçılığı xüsusiyyətləri"** adlı üçüncü paraqrafında göstərilir

---

[26] Məmmədov, M. Teatr düşüncələri / M.Məmmədov. – Bakı: İşıq, – 1977. – 232 s., s. 43.

[27] Qafarlı ,V.R. Azərbaycan teatrının janr poetikası / V.R. Qafarlı. – Bakı: Qanun, – 2012. – 156 s., s. 87.

ki, Gəncə teatrının ilk dəfə 1965-ci ildə "Sən həmişə mənimləsən" tamaşası ilə müraciət etdiyi lirik-psixoloji üslub rejissor və aktyorları müasir səhnə yozumlarının axtarışına yönləndirmiş, aktyorlar qarşısında yeni estetik üslubun bədii ifadə imkanlarına yiyələnməsi üçün geniş meydan açmışdır. Lakin hadisəçiliyin deyil, psixoloji münasibətlərin əsas olduğu lirik-psixoloji üslub bəzi tamaşalarda maraqlı alınmasa da, ümumən bu tamaşalar rejissorlara mövzuları tamamilə yeni ifadə vasitələrində canlandırmaq, aktyorlara isə obrazların səhnə təfsirinə yanaşma prinsiplərindəki yeniliyi düzgün qavramaq imkanı vermişdir.

Bu üslubda hazırlanan tamaşalar teatrın yaradıcılıq ovqatına yeni ahəng, aktyorların özünüifadə imkanlarına rəngarənglik verir, səhnə ustalığının cilalanmasına geniş imkanlar açırdı.

Lirik-psixoloji üslubda hazırlanmış tamaşalar Gəncə teatrının estetikasına bir sıra yeni konseptlər gətirdi. Məsələn, İ.Əfəndiyevin "Unuda bilmirəm" tamaşası hər bir obrazın semantik yükündə uğurlu tənasübünün tapılması ilə yaddaşlarda qaldı. Gəncə teatrı 1965-ci ildən müraciət etdiyi lirik-psixoloji üslublu tamaşaların hazırlanması təcrübəsində özünəməxsus olan bir sıra ilklərə imza atdı. Bunlardan biri A.Məmmədovun "Yadındamı?" pyesinin səhnə təcəssümü üçün lirik-psixoloji üslubun Azərbaycan teatrında yaradıcısı kimi tanınan T.Kazımovun Akademik Milli Dram Teatrından Gəncə teatrına dəvət edilməsi idi. Digər ilklərdən biri başqırd dramaturqu Mustay Kərimin "Aygül diyarı" lirik-psixoloji pyesinə müraciət etməsidir.

İkinci fəslin **"2.4. Dünya dramaturqlarının əsərlərində mənəvi-əxlaqi problemlərin səhnə təcəssümü"** adlı dördüncü paraqrafında göstərilir ki, hər bir teatrın repertuarı onun bədii siması, yaradıcılıq qüdrətinin göstəricisidir. Odur ki, pyes yazan müəlliflərlə əməkdaşlıq münasibəti quran teatr, müəlliflərə nədən yaradıcılıqları ilə bərabər necə yazdıqlarını da xatırlatmalı, sənətkarlıq məsələlərinə xüsusi diqqət yetirməlidir. Çünki, teatrın bir sənət növü olaraq eramızdan əvvəl, antik adlandırılan dövrdə məhz dramaturgiya sayəsində təşəkkül tapdığı məlumdur. O da məlumdur ki, həmin

dövrdən uzun illər keçsə də teatr sənəti min bir bədii forma kəşf edib ifadə dəyişikliklərinə məruz qalsa da dramaturgiya teatrın cismindəki canı olmaqla dəyişməz qalır.[28] Bəhs etdiyimiz paraqrafda qeyd edilir ki, Gəncə Dövlət Dram Teatrı 1950-1990-cı illərdəki fəaliyyəti dövründə çox sayda xarici müəlliflərin əsərlərinə repertuarında yer ayırıb, dünya dramaturqlarının ədəbi-bədii baxımdan ən dəyərli əsərlərinə geniş meydan verib. Odur ki, tərcümə edilən pyeslər əsasında hazırlanan tamaşaların Gəncə teatrının yaradıcılıq fəaliyyətlərində xüsusi yer tutması diqqət çəkir.

Bu sənət ocağında əsərləri tamaşaya qoyulan Nazim Hikmət türk, Vadim Sobko, Aleksey Dudarev belorus, Georgi Mdivani, Kita Buaçidze, İlo Mosaşvili gürcü, Qabriel Zapolskaya polyak, Aleksandr Korneyçuk ukraynalı, Hüseyn Muxtarov türkmən, Eqon Rannet, Raymond Kauqver eston, Toktobolat Əbdümöminov qırğız, Rəsul Həmzətov avar, Aurel Baranqa rumın, Mustay Kərim başqırd, Osvald Zaqradnik slovak, Şərəf Xusainov tatar millətinin nümayəndələridir. Teatr müasir rus müəlliflərindən Edvard Braginskinin, Boris Lavrenyovun, Mixail Şatrovun, Aleksandr Gelmanın, Afanasi Salınskinin, Sergey Mixalkovun, Tur qardaşlarının, Viktor Rozovun da pyeslərini tamaşaya hazırlayıb.

Teatr təcrübəsindən *“məlumdur ki, hər bir təzə pyesə teatr səhnə həyatı verir. Rejissor və aktyorlar eyni əsərə öz yaradıcılıq prinsiplərinə istinad edərək müxtəlif şəkillərdə yanaşırlar. Bu səbəbdən də mətnin fikirlərin eyni olmasına baxmayaraq, tamaşaçı səhnədə müxtəlif həyat tərzi, mübarizə yolu olan insanlar görür.”*[29]

Bu məqamda onu da ayrıca qeyd etmək lazımdır ki, yuxarıda qeyd etdiyimiz müəlliflərin tərcümə əsərlərinin tamaşaları həmişə uğurlu alınmayıb. Bəzən zəif, yaxud mövzu-problematikası azərbaycanlı tamaşaçıların maraq dairəsinə uyğun gəlməyən dramlar

---

[28] Bax: Əlimirzəyev, X. Dramaturgiya, teatr və səhnə sənəti / X.Əlimirzəyev. – Bakı: Nurlan, – 2006. – 186 s.

[29] Lalayev, Ə. Azərbaycan-Orta Asiya teatr əlaqələri / Ə. Lalayev. – Bakı: Nağıl evi, – 2009. – 195 s., s. 87.

da repertuara yol tapa bilib. Ancaq geniş mənada tərcümə edilmiş əsərlər əsasında hazırlanan əksər tamaşalar teatrın rejissor və aktyor yaradıcılığının davamlı inkişafına təkan verib, repertuarda əlvanlıq yaradıb. Bu baxımdan, həmin tamaşaların bəzilərinin cüzi qüsurlarına baxmayaraq, ümumilikdə onları teatrın yenilik axtarışları kimi dəyərləndirmək mümkündür.

Dissertasiyanın **Nəticə** hissəsində aşağıdakı elmi-nəzəri qənaətlər ümumiləşdirilir:

1. Azərbaycanın teatr məkanında xüsusi yer tutan Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrı 1950-1990-cı illərdə 200-dən çox tamaşa hazırlayıb. Tədqiqatda dövrün yaradıcılıq həyatı nəzərdən keçirilərək onun səciyyəvi xüsusiyyətləri göstərilmişdir.

2. Teatrda klassik dramaturgiyanın səhnə təcəssümü işində forma axtarışlarının tədqiqi göstərmişdir ki, teatrın milli klassik dram və faciələrin səhnə təcəssümündə müasirlik bədii-estetik prinsip kimi götürülmüşdür. Həmin təcəssüm prosesində klassik milli komediyalara müasir səhnə yozumu verilmiş, dünya dramaturgiyası nümunələri əsasında hazırlanmış müxtəlif janrlı tamaşalarda mövzu-problematikanın zamanla ahəngdarlığına çalışılmış, sözü gedən səhnə təcəssümü aktyor ifaçılığı baxımından əsasən uğurlu olmuşdur.

3. Araşdırmada müasir əsərlərin tamaşalarında müşahidə edilən mövzu, janr və üslub prinsiplərinin öyrənilməsi nəticəsində aydın olmuşdur ki, həmin dramaturgiyanın səhnə təcəssümü sayəsində teatrda fəaliyyət göstərən rejissor qüvvələrinin, Azərbaycan müəlliflərinin dramlarında professional rejissuranın davamlı inkişafı mümkün olmuşdur.

4. Müasir komediyalarda gülüşün nailiyyəti çağdaş oyun estetikasını mənalandırmışdır.

5. Teatrın hazırladığı tamaşalarda lirik-psixoloji üslub həm də aktyor yaradıcılığının ifadə arsenalının zənginləşməsinə əhəmiyyətli dərəcədə fayda vermişdir.

6. Dünya dramaturqlarının əsərlərindəki ictimai, mənəvi-əxlaqi problemlərin təcəssümü teatrın cəmiyyət həyatına, öz ali məqsədi ilə ideya-estetik çağırışını müəyyən etmişdir.

7. Gəncə teatrının hazırladığı tamaşalar bir sıra qüsurları ilə yanaşı uğurlu olmuşdur. Teatrın tədqiqata çəkilən dövrdəki yaradıcılıq fəaliyyətlərində eksperimentlər aparılaraq, uğurlu və uğursuz səhnə əsərləri oynanılmışdır.

## Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:

1. Bədii əsərlər əsasında hazırlanmış tamaşalarda yaradıcılıq və səhnə problemləri (Gəncə teatrının təcrübəsi əsasında) // – “Musiqi dünyası”, № 3-4 (84/85) // – 2020. Elektronik s. 8629-8638.
2. Türk dramaturgiyası Gəncə teatrında // IV. Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu. Cild 3, 26-28 Nisan Niğde: Türkiyə, – 2017. – s. 475-479.
3. Gəncə teatrının repertuarında müasir komediya janrı və gülüşün estetik rejissor yozumu// “Harmoniya” jurnalı,// – 2020. №18/2019. – s.53-59.
4. Edebi Eserlerin Sahneye Uyarlanması ve Dram Janrının Talepleri (Gence tiyatrosu örneğinde)// UMBAK I Uluslararası Bilimsel Araştırmalar Kongresi, 28 Subat-01 Mart. – Ankara: Türkiyə,// – 2020. – s. 53-59.
5. Səhnə tərtibatında forma və məzmunun obrazlı həlli// – Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, “Mədəniyyət dünyası” – 2017. XXXVI, – s. 126 -132.
6. Tamaşanın estetik dəyərində musiqinin əhəmiyyəti// – Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti// “Elmi əsərlər”,// – 2017. №24, – s.126 -132.

7. Gəncə teatrında rejissor yaradıcılığı (1950-1990)// – Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, Doktorantların və Gənc Tədqiqatçıların XXI Respublika Elmi Konfransının Materialları II, 24-25 oktyabr 2017, // – 2017. – s.247-249.
8. Aktyor yaradэсэlэрэnэn lirik-psixoloji ьslubda təzahьr imkanlarэ (Gəncə teatrэnэn səhnə təcrьbəsi əsasэnda)// – Naxçıvan: AMEA Naxзэvan Bцlməsinin Эncəsənət, Dil və Ədəbiyyat Эnstitutu,//Axtarэюlar (ədəbiyyatюьnaslэq, folklorюьnaslэq, dilзilik və sənətюьnaslэq),// – 2021. Cild 15 No: 4 (41), – s.230-238.
9. Исполнительство актеров в спектаклях классических произведений,// – Дрогобич: Актуальні питання гуманітарних наук: міжвузівський збірник наукових праць молодих вчених Дрогобицького державного педагогічного університету імені Івана Франка, – 2018. Вип. 20. Том 1, – s. 32-38.

Dissertasiyanın müdafiəsi 18 oktyabr 2024-ci il tarixində saat 14 00 Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən FD: 2.35 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh. İnşaatçılar prospekti 39, AZ1065, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Зapa imzalanэb: 09.09.2024
Kapэzэn formatэ: A5
Həcm: 37159 iєarə
Tiraj: 100